# 10 may ulu öndər Heydər Əliyevin doğum günüdür

*Ölkəmizin dövlətçilik tarixində misilsiz xidmətləri olan, müasir Azərbaycan dövlətinin qurucusu, xalqın xilaskarı Heydər Əlirza oğlu Əliyev 1923-cü ildə Azərbaycanın qədim və zəngin tarixə malik diyarında—Naxçıvan şəhərində dünyaya gəlib.*

*1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirib. Təhsilini davam etdirmək məqsədilə Bakı Sənaye İnstitutuna daxil olan Heydər Əliyev 1941-ci ildə başlayan Böyük Vətən Müharibəsi səbəbindən təhsilini yarımçıq qoymağa məcbur olmuş, həmin il Naxçıvan Daxili İşlər Komissarlığında işə başlamışdır. 1944-cü ildən isə əmək fəaliyyətini Dövlət Təhlükəsizlik Komitəsində davam etdirmişdir. 25 il keçmiş SSRİ-də ən nüfuzlu təşkilat sayılan DTK-da işləyən Heydər Əliyev sıravi əməliyyat işçisindən bu orqanın respublika təşkilatının sədri vəzifəsinə yüksəlmiş, sovet dövründə Azərbaycanda çox az adama nəsib olan general rütbəsi almışdır.*



Heydər Əliyevin yüksək idarəçilik, təşkilatçılıq, insanlarla işləmək qabiliyyəti, əhali arasında olan nüfuzu nəzərə alınaraq 1969-cu ildə o vaxtki Azərbaycan Sovet Sosialist Respublikasında ən yüksək siyasi vəzifəyə—Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə seçilmişdir. Heydər Əliyev Azərbaycanı qısa müddətdə keçmiş SSRİ respublikaları arasında bütün göstəricilər üzrə ən qabaqcıl yerə çatdırmışdır. Bu dahi şəxsiyyət böyük uzaqgörənliklə hələ o zaman Azərbaycanın gələcəkdə müstəqil dövlət olacağını düşünərək möhkəm iqtisadi və kadr potensialı yaratmışdır.

1982-ci ilin noyabrında Heydər Əliyev keçmiş SSRİ hökumətində ikinci ən yüksək vəzifəyə seçilmişdir. Bu vəzifədə də ulu öndərin qəlbi həmişə Azərbaycanla vurmuş, bütün vasitələrlə doğma vətənin inkişafına kömək göstərmişdir.

1985-ci ildə xarici xüsusi xidmət orqanlarının, beynəlxalq antisovet qüvvələrinin yardmı ilə qaragüruhçu Mixail Qorbaçov SSRİ rəhbərliyinə seçildi. Mixail Qorbaçovun ən çox çəkindiyi yüksək nüfuzlu, geniş idarəçilik təcrübəsi olan şəxslər içərisində birincisi Heydər Əliyev idi. Yəqin ağaları başa salmışdılar ki, Heydər Əliyev hakimiyyətdə olduqca o öz avantürist siyasətini həyata keçirə bilməyəcək. Buna görə də 1987-ci ilin oktyabr ayında Heydər Əliyev hakimiyyətdən uzaqlaşdırıldı. Mən deyərdim ki, SSRİ-nin dağılması prosesi də məhz həmin aydan başlandı. Çünki SSRİ-nin dağılmasının nüvəsini təşkil edən Qarabağ hadisələri Heydər Əliyevin hakimiyyətdən uzaqlaşdırılmasından sonra hərəkətləndi. Erməni daşnakları fürsətdən istifadə edərək Azərbaycana qarşı ərazi iddiaları irəli sürdülər. Ermənilərin dağıdıcı hərəkətlərinə qarşı heç bir tədbir görülməməsi keçmiş Sovet Respublikalarında, həmçinin sosialist sisteminə daxil olan ölkələrdə separatçılıq meyllərini qızışdırdı. Nəticə məlumdur.

Hakimiyyətdən uzaqlaşdırılan ümummilli lider bir neçə il xalqdan təcrid olunmuş vəziyyətdə yaşamağa məcbur edildi. 1990-cı ilin yanvarında Bakıda və Azərbaycanın digər bölgələrində baş verən faciəli hadisələr Heydər Əliyevin səbr kasasını daşdırdı. Xalqın bu ağır günündə kənarda qalmağa dözə bilməyən ümummilli lider qadağalara baxmayaraq yanvarın 21-də Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək SSRİ rəhbərliyinin xalqımıza qarşı törətdiyi vəhşiliyə qarşı öz səsini ucaltdı, qorxmadan Qorbaçov rejimini ifşa edən bəyanat verdi.

1990-cı ilin iyul ayında Heydər Əliyevin Naxçıvana gəlişi xalqda ümid yaratdı. Bu zaman Bakıda tez-tez hakimiyyət dəyişiklikləri baş verirdi. Hakimiyyətə gələnlər bir-birinə əksqütbdə dayansalar da hamısının bir məsələdə fikri eyni idi. Heydər Əliyevi hakimiyyətə yaxın qoymamaq, təcrid etmək. Hətta 1992-ci ildə AXC—musavat hakimiyyətindəki bəzi avantüristlər ulu öndəri fiziki cəhətdən məhv etmək planları üstündə də baş sındırırdılar. Ancaq özünün dediyi kimi həmişə tanrıya, xalqına, dərin zəkasına və qabiliyyətinə arxalanan Heydər Əliyev bütün maneələrdən uğurla keçirdi.

1993-cü il yazın sonu, yayın əvvəllərində Azərbaycan dövlətçiliyi dilemma qarşısında idi:—Olum ya ölüm. Belə bir vəziyyətdə yeganə düzgün çıxış yolunu xalq müəyyən etdi:—Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəlməlidir. Beləliklə 1993-cü il iyun ayının 9-da xalqın təkidli tələbilə Heydər Əliyev Bakıya gəldi. Tarixin ironiyasına bax ki, bir vaxt Heydər Əliyevi Bakıya buraxmayan, onu ölümlə hədələyənlər həmin gün onun pişvazına çıxmışdılar. Onları ölümdən, xalqı isə düşdüyü ağır vəziyyətdən ancaq bu şəxs, ümummilli lider Heydər Əliyev qurtara bilərdi. Belə də oldu. 1993-cü ilin 15 iyununda Azərbaycan Respublikası Ali Sovetinin sədri, oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev Azərbaycanı bəlalardan, məhv olmaq təhlükəsindən qurtardı, güclü, müstəqil, inkişaf etmiş bir dövlətə çevirdi.

**Qüdrət SƏMƏDOV.**
**«Qəbələ».**

# Azərbaycan Xalq Cumhuriyyətinin süqutu

***1917-ci ildə çar Rusiyasında baş verən inqilab monarxiya rejiminin süqutuna, imperiyanın dağılmasına səbəb oldu. Yaranmış tarixi məqamdan istifadə edərək imperiyanın tərkibinə daxil edilmiş milli diyarlarda müstəqil dövlət yaratmaq arzuları gerçəkləşməyə başladı. Keçmiş Rusiya Dövlət Dumasında Zaqafqaziyadan təmsil olunan deputatlar əvvəlcə üç Zaqafqaziya Respublikasının birləşəcəyi qurum olan Zaqafqaziya Federasiyasını (Zakfederasiya) yaratmaq qərarına gəldilər. Ancaq tarixin bütün anlarında olduğu kimi ermənilər Zakfederasiya tərkibində olan digər respublikalara (Azərbaycan və Gürcüstana) qarşı təcavüz yolu, ərazi iddiası yolu tutduqlarına görə 1918-ci ilin may ayının 26-da Zakfederasiya dağıldı. Ayın 27-də Gürcüstan, 28-də isə Azərbaycan özünün müstəqilliyini elan etdi. Xarici qüvvələrin təzyiqi ilə yeni elan olunmuş Azərbaycan Xalq Cümhuriyyəti öz tarixi torpaqlarını—İrəvan və ətraf əraziləri imperiyaların xeyir-duası ilə yaradılan Ermənistan adlı qondarma dövlətə güzəştə getdi.***

Beləliklə şərqdə ilk dəfə demokratik əsaslara söykənən parlamentli müsəlman respublikası—Azərbaycan Xalq Cümhuriyyəti yarandı.

Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşasa da bir çox mühüm islahatlar, tədbirlər həyata keçirdi.

Dövlətin himni, gerbi, ordusu və digər artibutları yaradıldı. Azərbaycan dili dövlət dili elan olundu. Təhsil, səhiyyə və digər sahələrdə islahatlar tətbiq edildi. Bir çox xarici dövlətlərlə diplomatik əlaqələr quruldu, müqavilələr bağlandı.

1920-ci il aprel ayının 28-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti artıq dövlət sərhədlərini keçmiş XI rus ordusunun təzyiqi ilə hakimiyyəti bolşeviklərə təhvil verdi.

Azərbaycan Xalq Cümhuriyyətinin süqüt etməsinin bir neçə səbəbi var idi. Bunlardan ən əsası o idi ki, Rusiyada hakimiyyəti ələ almış bolşeviklər keçmiş imperiyanın sərhədlərini bərpa etmək niyyətindən əl çəkməmişdilər. O vaxt Azərbaycan imperiyanın əsas yanacaq enerji mənbəyi idi və bolşeviklərin bu ərazidən əl çəkəcəkləri real deyildi.

İkinci səbəb o idi ki, Azərbaycanın əsas dayağı olan Osmanlı Türkiyəsi dağılmış, Türkiyə ərazisi Antanta (İngiltərə, Fransa, Yunanıstan və s.) qoşunları tərəfindən işğal olunmuşdu.

Türkiyənin işğalçılara qarşı mübarizədə Rusiyanın köməyinə ehtiyacı var idi. Bolşevik Rusiyası da inqilabın əsas düşmənlərinin (İngiltərə, Fransa) Türkiyədə məskən salmasını arzulamırdı. Buna görə də Türkiyənin 1920-ci ildə Rusiyanın Azərbaycana müdaxiləsinə maneçilik törətmək imkanı yox idi. Əksinə türk generalı Xəlil Paşa XI qızıl ordunu Dərbənddən Bakıya müşayiət edərək yolüstü əhali ilə söhbətlərində onları ordunun Türkiyəyə yardıma getdiyinə inandırmağa çalışırdı.

Üçüncü səbəb: Azərbaycan Xalq Cümhuriyyəti iqtisadi sahədə nəzərdə tutduğu islahatları həyata keçirə bilməmişdi. Ərazisinin və əhalisinin doxsan beş faizindən çoxunu təşkil edən Azərbaycan kəndində rəncbər-mülkədar münasibətləri qalmaqda idi. Əksəriyyəti təhsilsiz olan xalqın əsas hissəsi müstəqil dövlətin nə demək olduğunu, məqsəd və məramını başa düşməmişdi. Buna görə də Gəncə şəhərindəki üsyan istisna olmaqla digər yerlərdə sovet hakimiyyətinə, qızıl orduya qarşı ciddi müqavimət göstərilmədi.

1920-ci ildə müstəqil Azərbaycan dövlətçiliyi süquta uğrasa da bu ideya heç vaxt məhv olmadı. 1991-ci ildə Azərbaycan yenidən müstəqilliyinə qovuşdu.

***«Qəbələ».***

# Ağsaqqallar ulu öndəri yad etdilər

Rayon ağsaqqalar şurasında ulu öndər Heydər Əliyevin doğum günü münasibətilə tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə ağsaqqallar şurasının sədri Nazim Mustafayev açmışdır. Şura sədri ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti barədə yığıncaq iştirakçılarına məlumat verdikdən sonra sözü ulu öndərin Azərbaycan Respublikasına rəhbərliyi dönəmlərində müxtəlif vəzifələrdə çalışmış ağsaqqallara verdi. Heydər Əliyevin sovet dönəmində Azərbaycana rəhbərliyi illərində rayonda rəhbər vəzifədə işləmiş ağsaqqal Şirin Şirinov ulu öndər haqqında xatirələrini danışdı. Ağsaqqal Səməd Səmədov ulu öndərlə görüşlərinin xoş xatirələrini tədbir iştirakçılarının nəzərinə çatdırdı.

Ağsaqqal Niyazi Babayev bildirdi ki, Heydər Əliyev Qəbələyə birinci dəfə 1978-ci ildə səfər edərkən onu yaxından görmək şərəfinə nail olub. Eyni zamanda bildirdi ki, xidməti ilə əlaqədar rastlaşdığı bütün insanlar vəzifəsindən və milliyyətindən asılı olmayaraq Heydər Əliyev şəxsiyyətinə böyük ehtiram göstərirdilər.

Ağsaqqallardan istefada olan zabit Alı Məmmədov, sadə peşə adamı Vaqif Əzimov və başqaları Azərbaycanın bu gün dünyada tanınmış bir dövlətə çevrilməsində Heydər Əliyevin və onun yolunun davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin misilsiz rolu barədə fikirlərini tədbir iştirakçılarına çatdırdılar.

Tədbiri ağsaqqallar şurasının sədri Nazim Mustafayev yekunlaşdırdı.

**«Qəbələ».**